# Əsas sözlər: Transfer üçün sürüşkən lövhələr

| Termin | Anlayışı | Şəkli |
|---|---|---|
| **Diabet** | Qanda şəkərin yüksək olduğu xəstəlikdir. Bir çox sağlamlıq problemlərinə, o cümlədən aşağıdakılara səbəb ola bilər: bədənin hissələrini (xüsusilə, ayaqları) hiss etmə problemi və bunun nəticəsində yaranan daban yaraları, görmə qabiliyyətinin tədricən itirilməsi, böyrəklərin zədələnməsi, sidiyi saxlaya bilməmə və yaddaş problemi. | |
| **Zəif / zəiflik** | Zəif, taqətsiz və enerjisi az. Bir çox hallarda insanlar yaşlandıqca və səhhətləri zəiflədikcə baş verir. | |
| **Tutacaq** | Şəxsin öz müvazinətini saxlamasına və ya hərəkət etməsinə kömək üçün yapışdığı sabit tutacaq. |  |
| **Təzyiq** | Təmasda olan bir cismin səthə təzyiq etmə qüvvəsi. | |
| **Təzyiq nəticəsində əmələ gələn yara** | Təzyiq nəticəsində əmələ gələn yara dərinin bütövlüyünün pozulmasıdır. Adətən, sümüklü yerin üzərində olur və hissiyyat problemləri olan və ya hərəkət etməkdə və vəziyyətini dəyişməkdə çətinlik çəkən insanlar arasında geniş yayılmış problemdir. | |
| **Onurğa beyni zədəsi** | Adətən qəza və ya xəstəlik nəticəsində baş verən onurğa beyni zədəsi. Onurğa beyni zədələndikdən sonra mesajlar bədənlə beyin arasındakı onurğa beyni boyunca hərəkət edə bilmir. Bir çox hallarda şəxs hərəkət edə bilmir (iflic olur) və zədələnmiş yerdən aşağısını hiss edə bilmir. | |
| **İnsult** | Beyində qan dövranına maneə yaranması. Bu, bədənin bir tərəfində zəifləməyə və ya iflicə, həmçinin danışmaqda, hissiyyatda, düşünməkdə və görmədə problemlərə səbəb ola bilər. | |
| **Transfer** | Bədəninizi bir səthdən digərinə hərəkət etdirmə. |  |